Azərbaycan Türkiyə
İş Adamları Birliyinin
İdarə Heyətinin
17 may 2007-ci il tarixli 40 saylı
Protokolu ilə təsdiq edilmişdir

İdarə Heyətinin sədri

________________ Ahmet Erentok

# AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİNİN

# ALİ MƏSLƏHƏT ŞURASININ

# ƏSASNAMƏSİ

## 1. Əsas müddəalar

1.1. Azərbaycan Türkiyə İş Adamları Birliyinin (bundan sonra ATİB) Ali Məsləhət Şurasının Əsasnaməsi Azərbaycan Respublikasının qanunvericiliyinə və ATİB-in Nizamnaməsinə uyğun hazırlanmışdır.

1.2. ATİB Ali Məsləhət Şurası ATİB-in İdarə Heyətinin qərarı ilə yaradılır və ATİB İdarə Heyətinin və Katibliyinin ATİB-in fəaliyyətinə ümumi rəhbərliyi üzrə funksiyalarının effektiv yerinə yetirilməsini təmin edən məsləhətverici – məşvərətçi orqandır. Ali Məsləhət Şurası ATİB-in adından hərəkət etmək hüququna malik deyil və onun qərarı ATİB-in İdarə Heyəti üçün tövsiyə xarakteri daşıyır.

1.3. ATİB Ali Məsləhət Şurası öz fəaliyyətində Azərbaycan Respublikasının qanunlarından, digər normativ-hüquqi aktlarından, ATİB-in Nizamnaməsindən, ATİB-in digər daxili sənədləri və qaydalarından, ATİB-in İdarə Heyətinin qərarlarından və bu Əsasnamədən çıxış edir.

## 2. Ali Məsləhət Şurasının məqsəd və vəzifələri

2.1. Ali Məsləhət Şurasının əsas məqsədi ATİB İdarə Heyətinin və Katibliyinin fəaliyyətinin qiymətləndirilməsindən, əsas fəaliyyət istiqamətləri üzrə təklif və tövsiyələrin verilməsindən ibarətdir.

2.2. ATİB Ali Məsləhət Şurasının əsas vəzifələri aşağıdakılardan ibarətdir:

2.2.1. ATİB-in fəaliyyətinin təkmilləşdirilməsi üçün təklif və tövsiyələrin hazırlanması və onların ATİB-in rəhbər orqanlarının müzakirəsinə çıxarılması;
2.2.2. ATİB strukturlarının fikirlərinin nəzərə alınması ilə sosial-iqtisadi inkişafın əsas məsələləri üzrə mövqelərin formalaşdırılması;
2.2.3. ATİB üzvlərinin hüquqlarının və qanuni maraqlarının qorunmasına dəstək verilməsi;
2.2.4. İqtisadi və sosial siyasət məsələləri üzrə dövlət hakimiyyəti orqanlarına müraciətlərin hazırlanması;
2.2.5. ATİB və Azərbaycan Respublikasının dövlət orqanları, elm və təhsil institutları, özündə biznes qurumlarını birləşdirən Qeyri Hökumət Təşkilatları arasında işgüzar əməkdaşlıq əlaqələrinin formalaşmasına və inkişaf etdirilməsinə dəstək verilməsi.

## 3. Ali Məsləhət Şurasının tərkibi

3.1. ATİB Ali Məsləhət Şurasına Azərbaycan Respublikasının dövlət orqanlarının, o cümlədən, Azərbaycan Respublikasının Milli Məclisinin, elm və təhsil institutlarının, özündə biznes qurumlarını birləşdirən Qeyri Hökumət Təşkilatlarının nümayəndələri, həmçinin ATİB üzvləri daxil ola bilərlər.

3.2. ATİB İdarə Heyətinin sədri və ya ATİB İdarə Heyəti sədrinin təqdimatı ilə ATİB İdarə Heyəti tərəfindən təsdiqlənən digər şəxs ATİB Ali Məsləhət Şurasının sədri olur.

3.3. Ali Məsləhət Şurasının iclasında Ali Məsləhət Şurası sədrinin müvainləri və Ali Məsləhət Şurasının məsul katibi seçilə bilər.

3.4. Ali Məsləhət Şurasının məsul katibi Ali Məsləhət Şurası sədrinin təqdimatı ilə Ali Məsləhət Şurası tərəfindən seçilir və aşağıdakı funksiyaları yerinə yetirir:

3.4.1. Ali Məsləhət Şurasının iclasının gündəliyinin hazırlanması;
3.4.2. Ali Məsləhət Şurasının iclaslarının hazırlanması, o cümlədən Ali Məsləhət Şurasının üzvlərinə iclasla bağlı bildirişlərin və gündəliyin çatdırılmasının təmin edilməsi;
3.4.3. Bu Əsasnamə ilə nəzərdə tutulmuş hallarda Ali Məsləhət Şurasının iclaslarının materiallarının hazırlanması;
3.4.4. Materillarıın Ali Məsləhət Şurasının üzvlərinə göndərilməsinin təmin edilməsi;
3.4.5. Ali Məsləhət Şurasının iclasının protokolunun aparılması və tərtib edilməsi;
3.4.6. Ali Məsləhət Şurası sədrinin verdiyi digər tapşırıqların yerinə yetirilməsi.

3.5. ATİB Ali Məsləhət Şurasının tərkibi hər il ATİB-in İdarə Heyətinin ATİB-in İllik Ümumi Yığıncağından sonra keçirilən ilk iclasında təsdiq edilir.

3.6. ATİB Ali Məsləhət Şurasına namizədlər Ali Məsləhət Şurasının üzvləri, ATİB İdarə Heyətinin sədri və üzvləri tərəfindən irəli sürülə bilər.

3.7. ATİB Ali Məsləhət Şurasının tərkibindən xaric edilmə ATİB İdarə Heyətinin qərarı əsasında aşağıdakı hallarda baş verə bilər:

3.7.1. Ali Məsləhət Şurasının üzvü onu üzvlükdən azad etməyi xahiş etdikdə;
3.7.2. Ali Məsləhət Şurasının iclaslarında 3 dəfə ardıcıl iştirak etmədikdə;

3.7.3. Ali Məsləhət Şurasının işində iştiraka uyğun gəlməyən hərəkətlər edildikdə.

## 4. Ali Məsləhət Şurasının fəaliyyətinin ümumi məsələləri

4.1. ATİB Ali Məsləhət Şurasının iclası Ali Məsləhət Şurası sədrinin qərarı ilə rübdə bir dəfədən az olmayaraq keçirilir.

4.2. İclasın gündəliyi ilə əlaqədar ATİB Ali Məsləhət Şurasının üzvləri və ATİB İdarə Heyətinin sədri və üzvləri təkliflər irəli sürə bilərlər.

4.3. İclasın gündəliyinin son variantı Ali Məsləhət Şurasının məsul katibi tərəfindən formalaşdırılır və Ali Məsləhət Şurasının katibi tərəfindən təsdiq edilir.

4.4. Gündəlikdə olan məsələlər üzrə materiallar məsələnin gündəliyə daxil edilməsi barədə təklif ATİB İdarə Heyətinin sədri və üzvləri tərəfindən irəli sürüldükdə Ali Məsləhət Şurasının məsul katibi tərəfindən, Ali Məsləhət Şurasının üzvü tərəfindən irəli sürüldükdə isə onun özü tərəfindən hazırlanır.

4.5. Ali Məsləhət Şurasının iclasının keçirilməsi barədə bildiriş və iclasın gündəliyi iclasın keçirilmə tarixinə ən geci 15 (on beş) gün qalmışa qədər Ali Məsləhət Şurasının məsul katibi tərəfindən Ali Məsləhət Şurasının üzvlərinə göndərilməlidir.

4.6. Gündəliyə daxil edən məsələlər üzrə materiallar Ali Məsləhət Şurasının məsul katibi tərəfindən iclasın keçirilmə tarixinə ən azı 7 (yeddi) gün qalmışa qədər Ali Məsləhət Şurasının üzvlərinə göndərilməlidir. Bu zaman, iclasın gündəliyinə məsələ daxil edilməsi barədə təklif irəli sürmüş Ali Məsləhət Şurasının üzvü həmin məsələ üzrə materialları iclasın keçirilmə tarixinə ən geci 10 (on) gün qalmışa qədər Ali Məsləhət Şurasının məsul katibinə təqdim etməlidir.

4.7. Ali Məsləhət Şurasının iclası, iclasda Ali Məsləhət Şurasının üzvlərinin üçdə birindən çoxu iştirak etdikdə səlahiyyətli sayılır.

4.8. Ali Məsləhət Şurasının iclasında qərarlar bu Əsasnamə ilə nəzərdə tutulan digər hallar istisna olmaqla iclasda iştirak edən üzvlərin sayından çıxış edərək sadə səs çoxluğu ilə qəbul edilir.

4.9. Ali Məsləhət Şurasının aşağıdakı hüquqları vardır:

4.9.1. ATİB-in rəhbər orqanlarına təklif və tövsiyələrin verilməsi;
4.9.2. ATİB Komissiyaları və işçi qruplarının səlahiyyətlərinə aid olan məsələlərdə onlarla qarşılıqlı birgə fəaliyyətin həyata keçirilməsi;
4.9.3. Müstəqil ekspertlərin cəlb edilməsi;
4.9.4. Müxtəlif məsələlər üzrə işçi orqanlar və ekspert qruplarının formalaşdırılması.

## 5. Yekun müddəalar

5.1. Bu Əsasnaməyə əlavə və düzəlişlər yalnız ATİB İdarə Heyəti tərəfindən həyata keçirilə bilər.